

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

29 fevral 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

BDU "Orhun" mübadilə proqramı çərçivəsində əməkdaşlığa xüsusi önəm verir ➔Səh.2

BDU-da akademik Yaqub Mahmudovun 85 illik yubileyi qeyd olunub ➔Səh.4

BDU və "Veysəloğlu Şirkətlər Qrupu" MMC arasında əməkdaşlıq memorandumu imzalanıb ➔Səh.4

BDU Türkiyənin Muğla Sıtkı Koçman Universiteti ilə "Erasmus" mübadilə protokolu imzalayıb ➔Səh.8

Audiovizual Şuranın əməkdaşları BDU tələbələrinə mühazirə oxuyublar ➔Səh.10

BDU-dan növbəti kitabbağışlama aksiyası ➔Səh.10

BDU-nun təsis etdiyi elmi jurnal BMT-nin AGRIS beynəlxalq bazasına daxil edilib ➔Səh.12



Çexiyanın Karlova Universitetinin prorektoru BDU-da ➔Səh.2



TÜBİTAK-ın prezidenti Hasan Mandalın BDU-nun müəllim-tələbə heyəti ilə görüşü ➔Səh.4



BDU və Milli Observatoriya nümayəndələri arasında görüş ➔Səh.5



BDU-da Xocalı soyqırımının 32-ci ildönümü qeyd olunub ➔Səh.6



BDU-da "Beynəlxalq Ana Dili Günü" adlı kitab sərgisi ➔Səh.12



## BDU-da Azərbaycan Gəncləri Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, gənclər hər bir xalqın xoşbəxt gələcəyə olan ümidi, cəmiyyətin dinamik, hərəkətverici, fəal hissəsidir. Azərbaycan gəncliyi isə həm də xalqımızın Zəfər tarixini öz qanı, canı ilə yazan gənclikdir. 27 il bundan öncə Ulu Öndərin imzaladığı Fərmanla fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd edilir. Bütün dünyaya nümunə olan bu addımdan xeyli sonra BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust Beynəlxalq Gənclər Günü elan olunub. Məhz Ümummilli Liderin müdrikliyi və uzaqgörənliyi sayəsində dövlətimizin gənclər siyasətinin zəruri qanunvericilik bazası yaradılıb, gənclərin sosial, iqtisadi, təhsil və digər problemlərinin həllinə yönəlmiş fərman və sərəncamlar, qanunlar qəbul edilib. Bütün bunlar gənc nəslin cəmiyyətdə mütəşəkkil qüvvəyə çevrilməsində, ictimai fəallığının yüksəldilməsində, dövlət idarəçiliyinə cəlb edilməsində və məşğulluğunun təmin olunmasında mühüm rol oynayıb.

Əliş Ağamirzəyev qeyd edib ki, ölkədə gənclər siyasətinin bir mərkəzdən idarə olunması üçün 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının keçirilməsi, 1999-cu ildə dövlət gənclər siyasəti haqqında Fərmanın imzalanması Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğısının təzahürü idi. 2002-ci ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Qanun da bu istiqamətdə görülən ən mühüm işlərdən biridir: "Ölkəmizdə gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Yetişməkdə olan nəslin təhsili və mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, dövlətə və xalqa sadiqlik ruhunda formalaşması, sosial müdafiəsi istiqamətində atılan addımlar buna bariz nümunədir.

Azərbaycan gəncliyi ilə bağlı müxtəlif Dövlət proqramları qəbul edilib, 2007-ci il "Gənclər ili" elan olunub, 2011-ci ildə Gənclər Fondu yaradılıb. 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis olunub, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" və s. mühüm sənədlər təsdiqlənib. Müstəqil Azərbaycanın gənc nəsli Vətənə və xalqa sevgisi, dövlətə sadiqliyi, milli adət-ənənələrə, dəyərlərə bağlılığı ilə seçilir. 44 günlük Vətən müharibəsi Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri oldu.

Xalqımızı otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşduranlar məhz Müzəffər Ali Baş Komandanın müdrik və qətiyyətli rəhbərliyi altında döyüşən gənclərimiz oldu. Bu gün gənclərimiz suverenliyi tam bərpa edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərində yaxından iştirak edirlər".

*(Ardı səhifə 3-də)*

## BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Xocalının haqq səsi" adlı tədbir

➔Səh.7

# BDU ilə Sosial Xidmətlər Agentliyi arasında anlaşma memorandumu imzalanıb

***Fevralın 1-də BDU ilə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin (ƏƏSMN) tabeliyində Sosial Xidmətlər Agentliyi arasında əməkdaşlıq memorandumu imzalanıb.***

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev son illər ƏƏSMN və ona tabe qurumlarla sıx əməkdaşlıq edildiyini bildirib. Rektor qeyd edib ki, ali məktəblər arasında məhz BDU-da bir neçə il əvvəl Psixoloji xidmət sektoru yaradılıb və uğurla fəaliyyət göstərir. BDU-nun Sosial elmlər və psixologiya fakültəsi Universitetin ən köklü fakültələrindəndir. Elçin Babayev verilən biliklərin təcrübədə möhkəmlənməsinin zəruri olduğunu və hər iki quruma fayda verəcəyini vurğulayıb.



Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov həssas əhali qruplarına göstərilən sosial xidmətlər barədə ətraflı məlumat verib. Qeyd edib ki, Agentlik bu xidmətlərin operativ və səmərəli təşkili, sosial xidmətlərə əlçatanlığın artırılması üçün mütəmadi işlər görür. Bu baxımdan sosial xidmətlər üzrə mütəxəssis hazırlığı həyata keçirən ali təhsil müəssisələri ilə əməkdaşlıq zəruridir. Həmçinin bu sahədə ixtisaslaşmış gənc kadrların işə cəlbinə xüsusi önəm verilir. Hazırda Agentlikdə BDU-nun bakalavriatura səviyyəsini bitirən 100, magistratura səviyyəsini bitirən 24 məzunu çalışır. Memoranduma əsasən, növbəti 3 il ərzində Universitetin müvafiq sahədə ixtisas və ixtisaslaşmaları üzrə ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyəsində təhsil alan tələbələri üçün Agentlikdə istehsalat və elmi-tədqiqat təcrübə proqramları təşkil olunacaq.

Eləcə də hər iki tərəfin mütəxəssisləri birgə sosial layihələrin hazırlanması və həyata keçirilməsində iştirak edəcəklər.

# Çexiyanın Karlova Universitetinin prorektoru BDU-da

***Fevralın 2-də BDU-nun rektoru Elçin Babayev Çexiya Respublikasının Karlova Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Eva Voldriçova Berankova ilə görüşüb.***

BDU rektoru Elçin Babayev qonağa Universitetin tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri ilə bağlı məlumat verib. Karlova Universiteti ilə əməkdaşlıq münasibətlərinin inkişaf etdirilərək yeni müstəviyə keçirilməsinin vacibliyini vurğulayıb. Rektor BDU ilə Karlova Universiteti arasında maraq doğuran istiqamətlər üzrə ikili diplom proqramlarının qurulması, akademik, inzibati heyətin və tələbə mübadiləsinin artırılmasının əhəmiyyətinə də toxunub. Elçin Babayev eyni zamanda ortaq forumların, elmi konfransların keçirilməsinin, birgə elmi qrantlara müraciət edilməsinin vacibliyini qeyd edib. O bildirib ki, Karlova Universiteti ilə "Erasmus+ KA 171" proqramı çərçivəsində biologiya üzrə uğurlu əməkdaşlıq davam edir. Rektor kompüter elmləri, biotexnologiya, kimya, riyaziyyat, ekologiya istiqamətləri üzrə də geniş əməkdaşlıq imkanlarının olduğunu xatırladıb. Bu sahələr üzrə BDU ilə Karlova Universitetinin ortaq tədqiqatlar, birgə layihələr həyata keçirmək imkanlarının olduğu diqqətə çatdırılıb.



Karlova Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Eva Voldriçova Berankova BDU ilə ortaq layihələrə, xüsusilə müəllim-tələbə mübadiləsinin, müxtəlif sahələr üzrə elmi tədqiqatların genişlənməsinə ehtiyac olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# BDU Qazaxıstanın Atırau Dövlət Universiteti ilə anlaşma memorandumu imzalayıb

***Fevralın 2-də BDU Qazaxıstanın X.Dosmuxamedov adına Atırau Dövlət Universiteti ilə qarşılıqlı anlaşma memorandumu imzalayıb.***

Memorandumu BDU-nun rektoru Elçin Babayev və X. Dosmuxamedov adına Atırau Dövlət Universitetinin rektoru Salamat İdrissov imzalayıb. Memorandum çərçivəsində bakalavr, magistr, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Əsası 1950-ci ildə qoyulmuş Atırau Dövlət Universitetində müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

# Biologiya fakültəsinin Çexiyanın Karlova Universiteti ilə əlaqələri genişlənir

***Fevralın 6-da Biologiya fakültəsində Çexiyanın Karlova Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor Eva Voldriçova Belankova və Çex Respublikasının konsulu Pavel Kuçera ilə görüş keçirilib.***

Görüşdə "Erasmus Mundus", "Capacity Building" və "Mobility" proqramları üzrə əməkdaşlıq istiqamətləri müzakirə edilib. Görüş zamanı zoologiya, eksperimental botanika və molekulyar biologiya sahələrində nəzərdə tutulan birgə tədbirlərin planlaması həyata keçirilib.

Qeyd edək ki, BDU ilə Karlova Universiteti arasında imzalanmış "ERASMUS+KA107" tələbə-müəllim mübadiləsi proqramı çərçivəsində fakültənin bir qrup əməkdaşı bu ilin aprel ayında Karlova Universitetinə dəvət alıb.

# BDU Elmi Şurasının növbəti iclası

***Fevralın 21-də BDU-nun Elmi Şurasının növbəti iclası keçirilib.***

İclasda 2023/2024-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri müzakirə olunub. BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, Apelyasiya Komissiyasının sədri Elşad Qurbanov, İqtisadiyyat və Humanitar Kollecin direktoru Səhər Orucova sessiyanın nəticələri ilə bağlı məruzə ediblər. Bildirilib ki, qış imtahan sessiyasında ümumilikdə 24 mindən artıq təhsilalan iştirak edib. Bakalavriatura səviyyəsi üzrə 19 mindən çox, magistratura səviyyəsi üzrə 2100, Qazax filialı üzrə 1730, SABAH qrupları üzrə 860 nəfər imtahan verib. İmtahan sessiyası ərzində Apelyasiya Komissiyasına və "Qaynar xətt"ə daxil olan müraciətlər operativ qaydada araşdırılaraq cavablandırılıb. İmtahan qaydalarının pozulması halları ötən ilə nisbətən 43 faiz azalıb.



Beynəlxalq əlaqələr üzrə prorektor Şahin Pənahov 2023-cü ildə BDU-nun beynəlxalq əməkdaşlıq əlaqələri haqqında hesabat verib.

İclasda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar BDU-nun Tədbirlər Planı təsdiqlənib.

İclasda daha sonra cari məsələlərə baxılıb.

# BDU "Orhun" mübadilə proqramı çərçivəsində əməkdaşlığa xüsusi önəm verir

***BDU Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlər arasında ali təhsil sahəsində əməkdaşlığı həyata keçirmək məqsədilə yaradılmış Türk Universitetləri Birliyinin üzvü olan universitetlər ilə "Orhun" mübadilə proqramı çərçivəsində əməkdaşlığa xüsusi önəm verir.***

Sözügedən proqram çərçivəsində BDU-nun bir əməkdaşı Qırğızıstanın Türkiyə-Qırğızıstan Manas Universitetində təcrübə mübadiləsində iştirak edib. Hazırda BDU-nun Kimya fakültəsinin tələbəsi Aynur Fərazi Türkiyənin Ege Universitetində, Ege Universitetinin tələbəsi Hazal İşık isə BDU-da təhsilini davam etdirir.

2023/24-cü tədris ilinin payız semestrində "Orhun" mübadilə proqramı çərçivəsində Qırğızıstanın Türkiyə-Qırğızıstan Manas Universitetinin tələbəsi Nurdana Nurbek qızı və Qazaxıstanın Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universitetinin tələbələri Madiyar Dauletkazy və Dilnaz Tulegenova BDU-da təhsillərini davam etdirib və proqramı uğurla başa vuraraq ölkələrinə geri dönüblər. Qeyd edək ki, "Orhun" mübadilə proqramı TDT-yə üzv dövlətlərin ali təhsil sahəsində əməkdaşlığını həyata keçirmək məqsədilə yaradılmış Türk Universitetləri Birliyinin üzvü olan universitetlər arasında mübadilə proqramıdır. Proqram çərçivəsində bir semestr ərzində təhsil alan tələbələrin müəyyən xərclərinin tərəfdaş universitetlər tərəfindən qarşılanması nəzərdə tutulur.

# BDU-da Azərbaycan Gəncləri Günü qeyd olunub

(Əvvədi 1-ci səhifədə)



Prorektor vurğulayıb ki, 105 yaşlı BDU bu gün dövlətimizin uğurla həyata keçirdiyi gənclər siyasətinin gerçəkləşməsi, könüllülük fəaliyyətinin genişlənməsində yaxından iştirak edir. 2020-ci ildə ölkənin ali təhsil müəssisələri arasında ilk dəfə olaraq BDU-da Humanitar məsələlər və gənclər siyasəti şöbəsi yaradılıb. Hazırda BDU-da 5 gənclər təşkilatı fəaliyyət göstərir. BDU tələbələrinin elmi potensiallarının üzə çıxarılması istiqamətində yüksək nailiyyətlər əldə edən Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi, gənclər siyasətinin və könüllülük fəaliyyətinin təşviqini həyata keçirən “BDU könüllüləri”, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Elmi Cəmiyyəti ölkəmizdə gənclər siyasətinə öz layiqli töhfələrini verir”.



BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi Ləman Salmanova, Filologiya fakültəsinin II kurs tələbəsi, “Heydər Əliyev adına təqaüd”çü Mehrəngiz Qurbanova çıxışlarında Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında dövlətin apardığı gənclər siyasətinin rolundan bəhs ediblər.

Tədbirdə BDU-nun 2 fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş “İlin gənc alimi” müsabiqəsinin qalibləri elan olunub. Həmçinin Türkmənistan Respublikasının Məhtimqulu adına Türkmən Dövlət Universitetinin keçirdiyi ali məktəb tələbələri arasında II Beynəlxalq Kimya Olimpiadasında fərqlənən 6 BDU tələbəsi təltif edilib.

Daha sonra tədris göstəricilərinə görə fərqlənən və BDU-nun ictimai həyatında fəal iştirak edən 34 tələbəyə, BDU-nun gənclər təşkilatlarının 20 üzvünə təşəkkürnamələr təqdim olunub.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı konsert proqramı ilə davam edib.

Tədbirin sonunda BDU-nun Vətən müharibəsində şəhid olmuş tələbə və məzunlarının xatirəsinə həsr olunmuş lövhənin qarşısına əklil qoyulub. Məlumat lövhəsi BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü ilə yaradılıb.

# BDU-nun “İlin gənc alimi” müsabiqəsinin nəticələri açıqlanıb

***BDU-da 2 fevral – Azərbaycan Gəncləri Gününə həsr olunmuş “İlin gənc alimi” müsabiqəsinin nəticələri açıqlanıb.***



Müsabiqə Komissiyasının qərarına əsasən, BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının müdiri Ələkbər Hüseynzadə təbiət və texnika elmləri üzrə, Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının III kurs doktorantı Hacı Qasımlı isə humanitar və ictimai elmlər üzrə ən yüksək nəticə göstərərək “İlin gənc alimi” seçiliblər.

BDU-nun yüksək elmi nəticələri ilə seçilən daha iki əməkdaşı - Nanomaterialların kimyəvi fizikası kafedrasının baş müəllimi Lalə Qəhrəmanlı və Pedaqogika kafedrasının laborantı Nərminə Mirzəliyeva həvəsləndirici hədiyyə ilə təltif olunub.

Qeyd edək ki, BDU artıq dörd ildir ki, 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə “İlin gənc alimi” müsabiqəsi elan edir. Müsabiqənin məqsədi BDU-nun yaşı 35-ə qədər, il ərzində aktiv fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olan magistrant, doktorant və əməkdaşlarının mükafatlandırılmasıdır.

# 2024-cü il Gənclər üçün Prezident mükafatçılarından üçü BDU-nun tələbə və məzunudur

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən 10 gəncə 2024-cü il Gənclər üçün Prezident mükafatı verilib.***

Onlardan 3-ü – Gülnar Abdullayeva 2016-cı ildə BDU-nun Biologiya, Ulucay Məmmədov 2019-cu ildə Jurnalistika fakültələrini bitirib, Pərviz Mirələmli isə hazırda BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində magistratura təhsili alır.

Tələbə və məzunlarımızla fəxr edirik!

# 2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:***

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2024-cü il Gənclər üçün Prezident mükafatları verilsin:

*Abdullayeva Gülnar Rizvan qızı*
*Ağamirova Rəvanə Seymur qızı*
*Ağazadə Taryel İsa oğlu*
*Allahverdiyev Ayxan Elman oğlu*
*Baxışova Rzayeva Kimyaxanım Ziyad qızı*
*Məhərrəmova Zərifə Hüseyn qızı*
*Məmmədov Ulucay Akif oğlu*
*Məmmədova Dinara Bəxtiyar qızı*
*Məmmədova Fatimə Nizami qızı*
*Mirələmli Pərviz Atamalı oğlu.*

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 fevral 2024-cü il*

# “TEKNOFEST-2024”lə bağlı infosessiya

***“Bilim Bakı” Mərkəzinin rəhbəri, “TEKNOFEST”in Azərbaycandakı rəsmi nümayəndəsi Ahmet Köse BDU-nun tələbələri üçün infosessiya keçirib.***

BDU rektoru Elçin Babayev festivalın tələbə və gənc tədqiqatçılar üçün mühüm fürsət olduğunu qeyd edib. Rektor bidirib ki, BDU “TEKNOFEST-2023”də böyük uğura imza atıb. Universitetin 4 komandası yarışmada müxtəlif kateqoriyalar üzrə təqdim edilmiş 6 layihə ilə təmsil olunub. BDU komandaları “TEKNOFEST-İstanbul” festivalında I və III yerlərə, “TEKNOFEST-Ankara” festivalında isə “En iyi girişim” mükafatına layiq görülüb.

Daha sonra Ahmet Köse dünyanın ən böyük kosmos, aviasiya və texnologiya festivalı olan “TEKNOFEST-2024”lə bağlı geniş təqdimat edib. Bildirib ki, "TEKNOFEST-2024” bu ilin avqust ayında Türkiyənin Adana şəhərində keçiriləcək. “TEKNOFEST-2024”də komandalar 46 əsas, 117 alt yarışma kateqoriyası üzrə yarışacaqlar. “Gələcək Sənsən” şüarı altında təşkil olunan festivalda iştirak üçün qeydiyyat fevralın 20-dək davam edəcək.

Tədbirin sonunda Ahmet Köse yarışmaya qatılmaq istəyən BDU komandalarının suallarını cavablandırıb.

Qeyd edək ki, BDU-nun “TEKNOFEST-2024”də daha geniş tərkibdə iştirakı nəzərdə tutulub. Tələbələr tərəfindən hazırlanacaq layihələr festivalın “Yaşıl texnologiyalar”, “Aqrar texnologiyalar”, “Ağıllı nəqliyyat texnologiyaları”, “Turizm texnologiyaları” və “Pilotsuz uçuş aparatları” kateqoriyalarına təqdim ediləcək.

# BDU-nun daha iki fakültəsinin əməkdaşları üçün tələbəyönlü tədrisin təşkilinə dair təlim

***Fevralın 23-də Fizika və Geologiya fakültələrinin əməkdaşları üçün təlim təşkil olunub.*** Təlimçi kimi rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov çıxış edib. Təlimdə tələbəyönlü və kompetensiya əsaslı tədrisin təşkilinə dair iştirakçılara geniş məlumat verilib. Təlimdə fakültənin akademik, inzibati və tədris köməkçi heyəti iştirak edib. Sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Qeyd edək ki, təlim silsilə olaraq digər fakültələrdə də keçiriləcək.

# BDU-da akademik Yaqub Mahmudovun 85 illik yubileyi qeyd olunub

***Fevralın 12-də BDU-da görkəmli tarixçi alim, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, BDU-nun Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudovun 85 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.***



Konfransı giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev bildirib ki, akademik Yaqub Mahmudovun Azərbaycan tarixinin tədqiqi, öyrənilməsi və ölkəmizdə yüksəkixtisaslı tarixçi kadrların yetişdirilməsində mühüm xidmətləri var. Rektor görkəmli alimin 1981-2004-cü illərdə BDU-nun Tarix fakültəsində müxtəlif vəzifələrdə çalışdığını, 17 il AMEA-nın Tarix İnstitutunun direktoru işlədiyini, Azərbaycan tarixinin müxtəlif dövrlərinin öyrənilməsində xüsusi rola malik olduğunu xatırladıb. Qeyd edib ki, Yaqub Mahmudov tarixşünaslıqda ilk dəfə olaraq XV-XVII əsrlərdə Azərbaycanın Avropa ölkələri ilə geniş diplomatik əlaqələr saxladığını aşkara çıxarıb, bu sahədə elmə mühüm yeniliklər gətirib. O, diplomatiya tarixi, Azərbaycan və ümumdünya tarixinin ayrı-ayrı dövrlərinə aid çoxsaylı monoqrafiya, dərslik, kitab, dərs vəsaiti, elmi-publisistik məqalələrin müəllifidir. 1991-ci ildən BDU-nun Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri olan Yaqub Mahmudov həmçinin ölkənin tanınmış ictimai-siyasi xadimlərindən biridir. O, dörd çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü seçilib, hazırda Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvüdür. Görkəmli alimin xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, “Şöhrət”, “Şərəf”, 1-ci dərəcəli “Əmək” ordenləri ilə təltif olunub.

Daha sonra Tarix fakültəsinin dekanı İbrahim Zeynalov akademik Yaqub Mahmudovun elmi fəaliyyəti ilə bağlı məruzə edib. O bildirib ki, Yaqub Mahmudov Azərbaycan tarixinin tədqiqində bir çox ilklərə imza atıb. O, totalitar sovet rejiminin tuğyan etdiyi bir zamanda milli dövlətçilik tariximizin qaranlıq qalan sahələrinə müraciət etməyə başlayıb. Hələ 1966-cı ildə Ağqoyunlu – Bayandurlar dövlətinin Avropa və Asiya dövlətləri ilə geniş əlaqələrə malik olduğunu sübut edib. BDU-nun Tarix fakültəsinin nəzdində bir sıra yeni ixtisasların açılması, “Azərbaycanın maddi-mədəniyyət tarixi”, “Dünya azərbaycanlıları: tarixi demoqrafiyası”, “Tarixi tədqiqatlarda elektron – hesablama maşınları və riyazi üsulların tətbiqi” laboratoriyalarının yaradılması məhz onun adı ilə bağlıdır. Akademik Yaqub Mahmudovun 1991-1992-ci illərdə “Təhsil haqqında” ilk qanunun hazırlanmasında da xidmətləri böyükdür. “Orta əsrlər tarixi” dərsliyinin yaradılması da onun adı ilə bağlıdır. Həmin dövrdə ilk dəfə olaraq bütün türk dövlətlərinin tarixi “Orta əsrlər tarixi” dərsliyində yer alıb. Görkəmli alim erməni saxtakarlığına qarşı tarixi həqiqətlərin aşkarlanması sahəsində xüsusi xidmətlər göstərib.

BDU-nun Tarix fakültəsinin Türk xalqları tarixi kafedrasının müdiri Əsməd Muxtarova, Qafqaz xalqları tarixi kafedrasının müdiri İradə Hüseynova, Arxeologiya və etnoqrafiya kafedrasının müdiri Tarix Dostiyev, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri Mehman Abdullayev, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri Azad Rzayev, Qədim dünya və orta əsrlər tarixi kafedrasının professoru Əmrah Dadaşov, baş müəllimi Sevinc Məmmədova çıxışlarında akademik Yaqub Mahmudovun tarix elmimizi dünya miqyasında layiqincə təmsil etdiyini qeyd ediblər. Çıxışlarda vurğulanıb ki, Yaqub Mahmudov ömrünün yarısından çoxunu Azərbaycan tarixinin araşdırılması və tədrisinə həsr edib. Görkəmli tarixçi hazırda da öz məhsuldar elmi fəaliyyəti ilə tarix elminə əhəmiyyətli töhfələr verməkdədir.

Sonda söz yubilyara verilib. Akademik Yaqub Mahmudov elmi fəaliyyətinə verilən dəyərə görə Universitet rəhbərliyinə təşəkkürünü bildirib, gənc nəsli tariximizi sevməyə, öyrənməyə və təbliğ etməyə səsləyib.

# TÜBİTAK-ın prezidenti Hasan Mandalın BDU-nun müəllim-tələbə heyəti ilə görüşü

***Fevralın 29-da Türkiyənin Elmi və Texnoloji Tədqiqat Şurasının (TÜBİTAK) prezidenti Hasan Mandal Bakı Dövlət Universitetinin müəllim-tələbə heyəti ilə görüşüb.***




Qonağı salamlayan BDU rektoru Elçin Babayev TÜBİTAK-ın gördüyü işlərin həcmini və effektivliyini yüksək qiymətləndirib, onun Türkiyənin qısa müddətdə texnoloji sahədə yüksək sürətlə irəliləməsinə səbəb olan əsas qurumlardan biri olduğunu qeyd edib. Rektor diqqətə çatdırıb ki, büdcəsi, maliyyələşmə mexanizmi, ekspertiza sistemi, layihələrin qiymətləndirilməsi üsulları, beynəlxalq miqyasda əməkdaşlığa üstünlük verməsi TÜBİTAK-ı qardaş ölkənin mühüm strukturlarından biri edib. BDU indiyədək TÜBİTAK-ın 7 layihəsində iştirak edib. Hazırda TÜBİTAK-la 3 layihə həyata keçirilir. Bunlar riyaziyyat, kimya və biologiya istiqamətlərini əhatə edir.

TÜBİTAK-ın prezidenti Hasan Mandal isə çıxışında iştirakçılara qurumun missiyası, həyata keçirdiyi layihə və istiqamətlər barədə ətraflı məlumat verib. Qeyd edib ki, elm sahəsində insan resurslarının yetişdirilməsi hər iki qardaş ölkə üçün vacib məsələdir: “Azərbaycanla Türkiyənin ən böyük gücü gənc insan resurslarıdır. Alimlərimizin, tədqiqatçılarımızın və gənclərimizin birlikdə işləməsi və təkcə günümüzün deyil, dövlət başçılarımızın bizə verdiyi ümumi strateji hədəflərə uyğun olaraq gələcəyin ehtiyaclarını müzakirə etməsi vacib məsələdir”.

O, TÜBİTAK üçün qlobal və sənayedən olan çağırışlara dair elmi tədqiqatların prioritet olduğunu bildirib. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) 2024-cü ildə Azərbaycanda keçirilməsi barədə qərarın qürurverici olduğunu qeyd edən Hasan Mandal TÜBİTAK-da qlobal istiləşmə, su qıtlığı ilə mübarizə, yaşıl texnologiyalarla bağlı layihələrə üstünlük verildiyini bildirib. TÜBİTAK prezidenti həmçinin ötən il “TEKNOFEST-2023” Aerokosmik və Texnologiya Festivalında BDU komandalarının I və III yerləri tutduğunu xatırladıb, tələbələri bu il keçiriləcək festivalda fəal iştirak etməyə çağırıb.

Sonda Hasan Mandal BDU-nun professor-müəllim heyəti və tələbələrinin suallarını cavablandırıb.

# BDU və “Veysəloğlu Şirkətlər Qrupu” MMC arasında əməkdaşlıq memorandumu imzalanıb

***Fevralın 28-də Bakı Dövlət Universiteti və “Veysəloğlu Şirkətlər Qrupu” MMC arasında əməkdaşlıq memorandumu imzalanıb.***



Memorandumu BDU-nun rektoru Elçin Babayev və “Veysəloğlu Şirkətlər Qrupu” MMC-nin təsisçisi və baş icraçı direktoru Aydın Talıbov imzalayıb.

Mərasimdə çıxış edən rektor Elçin Babayev bildirib ki, sənaye müəssisələri və biznes qurumları ilə əlaqələrin genişləndirilməsi, Universitetdə aparılan elmi tədqiqatların istehsalata tətbiqi və alınan nəticələrin kommersiyalaşdırılması BDU-nun əsas fəaliyyət istiqamətlərindən biridir. Bu baxımdan “Veysəloğlu Şirkətlər Qrupu” MMC ilə əməkdaşlıq memorandumu hər iki qurumun inkişafına fayda verəcək. Rektor xüsusilə qida təhlükəsizliyi, qida mühəndisliyi, akvakultura kimi sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb.

“Veysəloğlu Şirkətlər Qrupu” MMC-nin təsisçisi və baş icraçı direktoru Aydın Talıbov isə bildirib ki, biznes sektoru və

*Aydın Talıbov: “Güclü universitetlər iqtisadiyyatın inkişafına öz töhfəsini verir. Bu baxımdan ölkənin ən qədim və böyük ali təhsil və elm ocağı olan BDU-nun böyük potensialı var”.*

universitetlərin əməkdaşlıq çərçivəsində çalışması günün tələblərindən biridir. Güclü universitetlər iqtisadiyyatın inkişafına öz töhfəsini verir. Bu baxımdan ölkənin ən qədim və böyük ali təhsil və elm ocağı olan BDU-nun böyük potensialı var. O, “Veysəloğlu Şirkətlər Qrupu” MMC-nin BDU tələbələrinin yüksəkixtisaslı kadrlar kimi yetişməsinə və təcrübə keçməsinə dəstək verməyə hazır olduğunu deyib, hər iki qurumun müxtəlif sahələrdə birgə layihələr həyata keçirəcəyini bildirib.

Memoranduma əsasən, tərəflər qarşılıqlı maraq doğuran sahələrdə birgə araşdırmalar aparacaq, konfranslar, seminarlar, qısamüddətli kurslar, təlimlər, təcrübəkeçmələr təşkil edəcək, müştərək layihə və proqramlar həyata keçirəcəklər.

# “Yaşıl kimya” mövzusunda tədbir keçirilib

***Fevralın 27-də Kimya fakültəsində “BDU könüllüləri” təşkilatının "Molecular Minds" və Bakı Ali Neft Məktəbinin (BANM) "Environmental Care" klublarının birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş "Yaşıl kimya" adlı tədbir keçirilib.***

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov bildirib ki, 2024-cü il Azərbaycan Respublikiasının Prezidenti İlham Əliyevin sərəncamı ilə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıl-



lıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. “Yaşıl dünya naminə həmrəylik ili” ilə bağlı həyata keçirilən layihələrdə gənclərin yaxından iştirakı təqdirəlayiqdir.

Daha sonra "Molecular Minds" və "Environmental Care" klublarının rəhbərləri Dəniz Seydəliyeva və Kərəm Məmmədzadə “Yaşıl kimya” termininin yaranması, əsas prinsipləri, onun ətraf mühit kimyası ilə oxşar və fərqli cəhətləri, ətraf mühitdə baş verən kimyəvi proseslər, antropogen təsirlər, ekoloji problemlərin həlli yolları və kimyəvi mübarizə üsulları barədə məlumat veriblər. Tədbirdə Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikasının “yaşıl enerji zonası” elan olunması, azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması, düşmənin vandalizminə və barbarlığına məruz qalmış zəngin meşələrin bərpa edilməsi istiqamətində həyata keçirilən tədbirlərlə bağlı müzakirələr aparılıb.

# BDU-da elmi seminar: “Kristallar, kvazikristallar və tətbiqi xalq sənəti”

***Fevralın 26-da BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmlar elmi-tədqiqat laboratoriyasında “Kristallar, kvazikristallar və tətbiqi xalq sənəti” mövzusunda elmi seminar keçirilib.***

Laboratoriyanın baş elmi işçisi İmaməddin Əmiraslanov son onilliklərdə kristalloqrafiya elmi sahəsində fundamental elmi kəşflər, bərk maddənin kristal və amorf halından fərqli halı – kvazikristallar barədə ətraflı məlumat verib, Penrose torları, Monotile (Einstein) anlayışlarının kristalloqrafiya problemlərinin həllində əhəmiyyətini vurğulayıb.

Seminarda xalq sənətində, xüsusən Şərqin həndəsi ornamentalistikasında orta əsrlərə aid dekorativ naxışların krisaloqrafik aspektləri ilə paralellər aparılıb, “tessellation” stilindəki yeni rəsmlər nümayiş olunub.

Seminarın sonunda məruzəçi iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU və Milli Observatoriya nümayəndələri arasında görüş

***Fevralın 13-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə Bakı Dövlət Universitetinin (BDU) nümayəndələri arasında görüş keçirilib.***




Görüşdə rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov məzunların məşğulluğunun artırılması və əmək bazarının tələblərinə uyğun kadr hazırlığına dair BDU-da görülən işlər haqqında məlumat verib.

Bununla yanaşı, görüşdə kadr hazırlığının əmək bazarının tələblərinə uyğunluğunun təhlil edilməsi, əmək qanunverciliyinə təkliflərin hazırlanması üçün birgə monitorinq və təhlillərin həyata keçirilməsi, BDU tələbələrinin Milli Observatoriyada təcrübə proqramı keçməsi haqqında fikir mübadiləsi aparılıb.

Görüşdə tərəflər arasında imzalanmış əməkdaşlıq memorandumunda qeyd edilən istiqamətlər üzrə görüləcək işlər də müzakirə edilib.

# BDU-da "Enterprice Azerbaijan" portalının "Startup School 2" layihəsinin təqdimatı

***Fevralın 29-da BDU-da İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu “Enterprise Azerbaijan” portalının “Startup School 2 - AI for Green Solidarity” layihəsinin təqdimatı keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov layihənin gənclərin ideyalarının dəstəklənməsi istiqamətində əhəmiyyətindən danışıb, tələbələri fəal iştiraka dəvət edib.

“Enterprise Azerbaijan” portalının rəhbəri Mətanət Musayeva “Startup School 2” layihəsinin əhəmiyyətindən, əməkdaşlıq etdiyi nüfuzlu qurumlardan və gənc startapçılara təqdim etdiyi fürsətlərdən danışıb. Bildirib ki, layihənin əsas məqsədi Azərbaycanda gənclərin süni intellektlə bağlı bilik və bacarıqlarını artırmaq, innovasiya mədəniyyətini və texnologiya savadını inkişaf etdirməklə insan resurslarının inkişafına töhfə verməkdir.

Tədbir çərçivəsində gənclər arasında innovasiya və startap ekosisteminə həsr olunmuş viktorina keçirilib. Viktorinanın ən fəal iştirakçılarına İİTKM-in ABŞ-ın Nevada Universiteti və Bakı Mühəndislik Universiteti ilə birgə hazırladığı “İnnovasiya və sahibkarlıq: startap ekosistemi” kitabı təqdim olunub.

Sonda “Enterprise Azerbaijan" portalının əməkdaşları BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi ilə tanış olublar.

# BDU və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi “Cənubi Qafqazda sülh və əməkdaşlıq perspektivləri” adlı tədbir keçirib

***Fevralın 28-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) və Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin birgə təşkilatçılığı ilə “Cənubi Qafqazda sülh və əməkdaşlıq perspektivləri” mövzusunda tədbir keçirilib.***

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev yeni dünya nizamının formalaşmaqda olduğunu, Azərbaycanın bu sistemdə yer alması istiqamətində müəyyən hədəflərin qarşıya qoyulduğunu diqqətə çatdırıb. Ölkəmizin hər zaman regionda sülhün və sabitliyin təmin edilməsinin tərəfdarı olduğunu bildirən Fərid Şəfiyev deyib ki, sülh üçün ilk növbədə Ermənistanın ərazi iddiaları ilə bağlı fikirləri gündəmdən çıxmalı, ölkəmizə qarşı etdiklərinin müqabilində təzminat mə-



sələsi həll olunmalıdır. O, Azərbaycanın dörd beynəlxalq məhkəmədə bununla bağlı iddia qaldırdığını da vurğulayıb.

BDU-nun rektoru Elçin Babayev bu tipli müzakirələrin faydalı olduğunu qeyd edib. O bildirib ki, BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin potensialından istifadə etməklə platforma yaratmaq, ölkəmizin beynəlxalq münasibətləri, xarici siyasəti, iqtisadiyyatı ilə bağlı çoxsaylı görüşlər və müzakirələr keçirmək olar.

Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Musa Qasımlı Azərbaycanın hər zaman konkret və preventiv siyasət yürütdüyünü, bundan sonra da yürüdəcəyini bildirib. O qeyd edib ki, Azərbaycandan fərqli olaraq, Ermənistan heç vaxt müstəqil siyasət yürüdə bilməyib.

BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Səbinə Qaraşova da qeyd edib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində tam suverenliyini bərpa etməsi sülh prosesinin gedişatında bir sıra mühüm amilləri ortaya çıxarıb. Cənubi Qafqazda sülhün təmin olunması üçün nəqliyyat-kommunikasiya xətləri açılmalı, müxtəlif istiqamətlər üzrə əməkdaşlıq əlaqələri formalaşmalıdır.

Sonra BMTM-in şöbə müdiri Cavid Vəliyev və digərləri mövzu ilə bağlı fikirlərini söyləyiblər. Çıxışlardan sonra Cənubi Qafqaz regionundakı vəziyyət, münasibətlərin perspektivləri, bölgədə davamlı sülhün dəstəklənməsi, regional əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Mədəniyyət Nazirliyi BDU-da infosessiya təşkil edib

***Fevralın 29-da BDU-nun Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və “BDU könüllüləri”nin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Animatorların inkişaf proqramı” və “Komediya və performans məktəbi” adlı təlimlərin infosessiyaları təşkil olunub.***

Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən "Yaradıcı sənayelər qovşağı" Tədris və İnkubasiya Mərkəzi tərəfindən keçirilən infosessiyanın məqsədi universitet tələbələrinin digər istedadlarının aşkara çıxarılmasına xidmət etməkdir.

Mərkəzin bədii rəhbəri Ələkbər Əliyev mədəniyyət sahəsində startap (“CulTech”) oyun texnologiyaları sənayesi (“GameTech”) və musiqi sənayesi üzrə biznes inkubasiya proqramları, milli qrafik dizayn kursları, musiqi sənayesi məktəbi, komediya məktəbi, animatorlar və prodüserlərin akselerasiyası proqramlarının həyata keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib.

# BDU-da Xocalı soyqırımının 32-ci ildönümü qeyd olunub






***Fevralın 26-da BDU-da Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin etnik təmizləmə, soyqırım siyasətinə məruz qalıb, xalqımız tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib. Ötən əsrin sonunda baş vermiş Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələrinin 7 min əhalisi olan Xocalı şəhərində terror aktı nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca ödürülüb, 1000 nəfər dinc sakin aldığı güllə yarasından əlil olub. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onların 150-nin taleyi indi də məlum deyil. Xocalı şəhərinin mərkəzində kütləvi insan qalıqlarının aşkar olunması onların taleyinin də fəlakətlə nəticələndiyini, erməni vandalizmini sübut edir.

Rektor Elçin Babayev vurğulayıb ki, bu faciəyə ilk dəfə hüquqi-siyasi qiymətı Ümummilli Lider Heydər Əliyev verib. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi “Xocalı soyqırımı günü haqqında” qərar qəbul edib, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayıb, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb. Bu gün artıq dünyanın bir çox ölkələrində erməni millətçilərinin törətdikləri qırğın soyqırım aktı kimi tanınır. Elçin Babayev Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmdə yayılmasında Heydər Əliyev Fondunun müstəsna rolunu qeyd edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” kampaniyası soyqırımın təkcə xalqımıza qarşı deyil, bütövlükdə insanlığa, bəşəriyyətə qarşı yönələn ən ağır cinayətlərdən biri kimi tanıdılması baxımından mühüm işlər həyata keçirir. “Xocalıya ədalət” kampaniyası bu tədbirlərə daha çox insanın cəlb olunmasında və soyqırım həqiqətlərinin daha geniş coğrafiyaya yayılmasında ciddi rol oynayır. Artıq bu təbliğat kampaniyası Amerikadan Avropaya, Mərkəzi Asiya, Yaxın və Uzaq Şərq ölkələri, Avstraliya, hətta Afrikaya qədər geniş bir coğrafiyanı əhatə edir.

BDU rektoru Xocalı soyqırımının anım gününün Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin rəmzinə çevrildiyini vurğulayıb: “Artıq dördüncü ildir ki, xalqımız Bakıdakı “Ana harayı” abidəsini alnıaçıq, başıuca ziyarət edir, çünki düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusu canı qanı bahasına Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olundu. Hazırda işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Xocalı şəhərində cənab Prezidentin tapşırığı ilə böyük miqyaslı quruculuq-tikinti işləri aparılır. Xocalı faciəsində şəhid olmuş soydaşlarımızın xatirəsinə soyqırımı abidəsinin inşası, muzeyin yaradılması nəzərdə tutulur. Görülmüş işlər soydaşlarımızın Xocalıya qayıdacağı günü daha da yaxınlaşdırır”.

Sonra BDU-nun Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müdiri Turqay Hüseynov, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, Xocalı soyqırımının canlı şahidi, “Soyqırım Həqiqətlərinin Tanıdılması” İctimai Birliyinin koordinatoru Mürvət Məmmədov, əslən Xocalıdan olan tələbələr Aysel Quliyeva, Arzu Abdullazadə çıxış ediblər. Çıxışlarda Ermənistanın hərbi-siyasi cinayətləri, tarixən həyata keçirdiyi işğalçılıq siyasəti barədə məlumat verilib, Xocalı soyqırımının dəhşətlərinin unudulmaması və gənclərin vətənpərvərlik ruhunda böyüməsi üçün təkliflər səsləndirilib.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı bədii hissə ilə davam edib.

# BDU-da tədbir: "Silinməz yaramız - Xocalı"

***Fevralın 22-də Biologiya fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş "Silinməz yaramız - Xocalı" adlı tədbir keçirilib.***

Tədbirdə çıxış edən Biologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Yusif Abıyev ermənilərin tarix boyu azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırım siyasəti barədə məlumat verib, Xocalı soyqırımının XX əsrin ən dəhşətli cinayətlərindən biri olduğunu deyib. Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tanınması istiqamətində görülən işlər haqqında danışan dekan müavini Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun şəhidlərimizin qanını yerdə qoymadığını, işğal altında qalan bütün torpaqlarımız kimi Xocalının da azad olunduğunu bildirib.

Sonra BDU-nun Tarix fakültəsinin müəllimi Nurlan Abbasov Xocalı faciəsinin səbəbləri, ermənilərin uzunmüddətli etnik təmizləmə siyasəti barədə tarixi faktları müəllim-tələbə heyətinin diqqətinə çatdırıb. Erməni vəhşilikləri haqqında xatirələrini iştirakçılarla bölüşən çıxışçı qeyd edib ki, gənclər xalqımıza qarşı törədilən cinayətləri unutmamalı, dərindən öyrənməli və öyrətməlidirlər.

Tədbirin sonunda Xocalı soyqırımı haqqında videoçarx nümayiş olunub.

# “Xocalı soyqırımı Azərbaycan xalqının yaddaşında silinməz iz kimi daim qalacaq"

Fevralın 23-də “BDU könüllüləri" təşkilatının Coğrafiya fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunmuş “Qan yaddaşımız” adlı tədbir keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin və Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov qeyd edib ki, xalqımızın və bəşəriyyətin tarixinə qanlı faciə kimi daxil olmuş Xocalı soyqırımından 32 il keçir. 1992-ci ildə ermənilər xalqımıza qarşı xüsusi qəddarlıqla və böyük amansızlıqla Xocalı qətliamını törədiblər. Xain, məkrli və namərd qonşularımız olan ermənilər iki əsrdən çoxdur ki, xalqımıza qarşı soyqırımı və deportasiya siyasəti ilə bütün dünyaya öz xislətlərini nümayiş etdiriblər. Məkrli siyasətin ən qanlı, ən faciəli səhifələrindən olan Xocalı soyqırımı Azərbaycan xalqının yaddaşında silinməz iz olaraq daim qalacaq. Bu gün müstəqil və müasir Azərbaycan qazandığı parlaq qələbə və Xocalıda qaldırdığı üçrəngli bayrağımız ilə 32 il əvvəlin qisasını alıb.

“BDU könüllüləri” təşkilatının sədr müavini Nigar Əliyeva, Coğrafiya fakültəsinin I kurs tələbələri Səbinə Şabanova, Minarə Əhmədli və Nailə Həşimzadə Heydər Əliyev Fondunun apardığı “Xocalıya ədalət!” kampaniyasının önəmindən və gənclərin bu prosesdə iştirakından söz açıblar. Bildiriblər ki, Azərbaycan gəncliyinin əsas vəzifəsi tarixdəki acı izləri öyrənərək gələcək nəsillərə çatdırmaqdır.

Daha sonra Xocalı faciəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbir bədii hissə ilə davam edib.

# BDU-da “Xocalı soyqırımı – unudulmaz faciə” adlı foto və kitab sərgisi açılıb



***Fevralın 23-də BDU Elmi Kitabxanasının təşkilatçılığı ilə “Xocalı soyqırımı – unudulmaz faciə” adlı foto və kitab sərgisi açılıb.***

Sərgidə Xocalı soyqırımından bəhs edən, Azərbaycan, ingilis və rus dillərində 50-dək kitab nümayiş olunub. Bura "Qarabağ düyünü", “Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi", "Vətən harayı", "Erməni terroru", "Xocalı soyqırımı" kimi kitablar daxildir.

Sərgidə həmçinin Xocalı faciəsinin dəhşətlərini əks etdirən 30-dək tarixi fotoşəkil də təqdim olunur.

Sərgi fevralın 27-dək ziyarətçilərin üzünə açıq olub.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyində “Xocalının haqq səsi“ adlı tədbir

***Fevralın 23-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyində “Xocalının haqq səsi“ adlı tədbir keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Liseyin direktoru Arif Bağırov ermənilərin tarix boyu azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırım siyasəti barədə şagirdlərə məlumat verib, Xocalı faciəsinin bu siyasətin ən dəhşətli səhifəsi olduğunu vurğulayıb.

Liseyin tarix müəllimi Aygün Əsədova Xocalı soyqırımının səbəbləri barədə şagirdləri məlumatlandırıb. Bildirib ki, Xocalı soyqırımını törətməklə ermənilər xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq və dəyanət göstərdi. 30 ildən sonra torpaqlarımızın işğaldan azad edilməsi xalqımızın mübarizə əzminin qırılmadığını bir daha nümayiş etdirdi.



Liseyin əməkdaşı, şəhid qızı Salatın Əhmədova illər sonra ilk dəfə Xocalıda atasının qəbrini ziyarət etməyindən danışıb, orada çəkdiyi videogörüntüləri, şəkilləri tədbir iştirakçılarına təqdim edib.

Liseyin müəllimləri Gülşən Əliyeva, Şamama Quliyeva, Yeganə Qəhrəmanlı, Kəmalə Əliyevanın təqdimatında şagirdlər Xocalı soyqırımına həsr olunmuş ədəbi kompozisiya nümayiş etdiriblər.

# Kimya fakültəsində Xocalı soyqırımı qurbanları anılıb

***Fevralın 23-də Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş “Əsrin faciəsi” adlı tədbir keçirilib.***

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq Xocalı üzərinə ağır hərbi texnika yeridib, yerlə yeksan etdikləri şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutub. Bu cinayət Ermənistanın məqsədli və düşünülmüş şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsidir. Dekan müavini qeyd edib ki, Xocalı soyqırımı qurbanlarının və bütün şəhidlərimizin qisası Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən 44 günlük Vətən müharibəsində və 19 sentyabr 2023-cü ildə keçirilən antiterror əməliyyatı zamanı alınıb, Azərbaycan öz suverenliyini bərpa edib.

Yüksək molekullu birləşmələr kimyası kafedrasının dosenti Elgün Abdullayeva çıxışı zamanı Xocalı faciəsinin Azərbaycan xalqının tarixində ən dəhşətli hadisə, bəşəriyyətə qarşı yönəlmiş mənfur cinayət olduğunu bildirib. O qeyd edib ki, Xocalı soyqırımının daha geniş miqyasda tanıdılması hər bir azərbaycanlının müqəddəs borcudur.

Fakültənin I kurs tələbəsi Elmir Məmmədovun moderatorluğu ilə davam edən tədbirdə bildirilib ki, Xocalı soyqırımı zamanı 613 vətəndaşımız, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca qətlə yetirilib, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülərək işgəncələrə məruz qalıb. Fakültənin tələbələri Nəsibə Məmmədova, Nəzrin Ağazadə və Alim Məmmədov vətənpərvərlik ruhunda şeirlər səsləndiriblər. Daha sonra Ali Baş Komandan, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərlərini və Xocalı şəhərində üçrəngli bayrağımızı ucaltmasını əks etdirən videoçarx nümayiş etdirilib.

# BDU və Bartın Universitetinin birgə konfransı: “Xocalı: soyqırımından zəfərə”

***İnformasiya və sənəd menecmenti fakültəsi və Türkiyənin Bartın Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün birgə təşkilatçılığı, qardaş ölkənin bir sıra universitetlərinin iştirakı ilə Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş “Xocalı: soyqırımından zəfərə” mövzusunda konfrans keçirilib.***

Əvvəlcə şəhidlərin əziz xatirəsi anılıb. Konfransın moderatoru – Bartın Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ahmet Altay iştirakçıları rektor Orhan Uzunun adından salamlayıb. Ahmet Altay qardaş ölkələr arasındakı əlaqələrdən bəhs edib, Azərbaycan-Türkiyə münasibətlərinin bütün dünyaya örnək olduğunu diqqətə çatdırıb. Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” sözlərini xatırladan natiq Xocalı faciəsinin heç zaman unudulmayacağını qeyd edib, bunun üçün birgə çalışmaların əhəmiyyətini vurğulayıb.

BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Zəfərlə 30 il davam edən işğala son qoyulduğunu bildirib. O, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin “Biz bir millət, iki dövlətik” kəlamını xatırladaraq, 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin Azərbaycana verdiyi mənəvi-siyasi dəstəyə görə minnətdarlığını ifadə edib: “Azərbaycan və Türkiyə prezidentlərinin tarixi xidmətləri sayəsində ölkələrimiz arasındakı dostluq, qardaşlıq münasibətləri ən yüksək səviyyəyə çatdırılıb. Vətən müharibəsində mənəvi-siyasi dəstəyi ilə hər an yanımızda olan qardaş Türkiyəmizin eyni dəstəyini bu gün azad Qarabağda aparılan quruculuq işlərində də hər an hiss edirik”.

Türkiyənin Bartın Universitetinin Ədəbiyyat fakültəsinin dekanı, professor Birgül Koçak Oksev çıxışında konfransın təşkilini yüksək qiymətləndirib, gələcəkdə həyata keçiriləcək birgə layihələrdən bəhs edib.

Konfransda BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan “Türk xalqının soyqırımı: Xocalı qətliamı”, Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılıov “Xocalı kitabxanaları və erməni vandalizmi”, Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kazimi “Qarabağda kitabxana-informasiya infrastrukturunun bərpasında türk dövlətlərinin kitabxana modelinin tətbiqi” mövzularında məruzə ediblər.

Məruzələrdə Xocalı faciəsi haqqında iştirakçılara geniş məlumat verilib, eyni zamanda artıq Xocalıda Azərbaycan bayrağının dalğalandığı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Xocalıda soyqırım qurbanlarının xatirəsinə ucaldılacaq Memorial Kompleksin təməlinin qoyulduğu vurğulanıb. Məruzələrdə həmçinin Qarabağ ərazisində kitabxanaların yaranması, formalaşması və inkişafı tarixinə nəzər salınıb, erməni vandalları tərəfindən bölgədə 4.6 milyon kitab fondu olan 927 kitabxananın tamamilə dağıdıldığı, yandırıldığı faktlarla diqqətə çatdırılıb. Azad edilmiş ərazilərdə aparılan quruculuq işləri, eyni zamanda bölgədə kitabxanaların bərpasının planlaşdırıldığı barədə danışılıb. Məruzəçilər tərəfindən Qarabağda kitabxanaların bərpası və inkişafı ilə bağlı təkliflər irəli sürülüb, quruculuq işlərində qardaş Türkiyənin təcrübəsindən yararlanmağın əhəmiyyəti vurğulanıb.

Tədbir iştirakçıların çoxsaylı suallarının cavablandırılması və gələcək əməkdaşlığın inkişafı ilə bağlı müzakirələrlə davam etdirilib.

# BDU və DSMF-nin əməkdaşları sosial iş sahəsi üzrə maarifləndirmə tədbirlərinə dair görüş keçiriblər

***Fevralın 21-də Sosial elmlər və psixologiya fakültəsinin Sosial iş kafedrası və Dövlət Sosial Müdafiə Fondunun (DSMF) əməkdaşları arasında ”Sosial iş sahəsi üzrə maarifləndirmə” layihəsi çərçivəsində görüş keçirilib.***

Görüşdə BDU-nun Sosial iş kafedrasının müdiri, dosent Üzeyir Şəfiyev, kafedranın əməkdaşları Eliza İsmayılova və Tərlan Tağıyeva, DSMF-nin Pensiya təyinatı departamentinin müdiri Eyvaz İsmayılov, Sosial ödənişlər departamentinin müdiri Rasim Səfərov, Layihələrin idarə olunması departamentinin mudiri Elnur Məmmədov, Fərdi uçota nəzarət departamentinin müdir müavini Lalə Abdullayeva, Dövlət icbari şəxsi sığorta məsələləri departamentinin müdir müavini Cəfər Salmanov iştirak ediblər.

Layihədə əsas məqsəd DSMF-nin fəaliyyət istiqamətləri, ölkədə aparılan sosial islahatlar, tətbiq olunan yeniliklərlə bağlı tələbələrin məlumatlandırılması, sosial iş ixtisası üzrə təhsil alan tələbələrin DSMF əməkdaşlarının təcrübəsindən yararlanması və sosial iş təhsili ilə Fondun fəaliyyət istiqamətlərinin əlaqələndirilməsidir. BDU-nun dosenti Üzeyir Şəfiyev bildirib ki, sosial iş təhsilinin keyfiyyət göstəricilərinin artırılmasında DSMF ilə əməkdaşlığın böyük əhəmiyyəti var və əməkdaşlıq istiqamətləri çoxşaxəlidir. O, DSMF əməkdaşlarının sosial iş ixtisasında tədris olunan bir sıra fənlər istiqamətində praktik xarakterli ustad dərslərinin keçirilməsi, tələbələrin Fondda könüllülük proqramı çərçivəsində davamlı fəaliyyətinin məqsədəuyğun olduğunu qeyd edib.

Səmərəli və işgüzar mühitdə keçirilən görüşdə əməkdaşlıq istiqamətləri müzakirə olunub.

# Boğaziçi Universitetinin professoru müasir topologiyanın problemlərinə dair məruzə edib

*BDU-nun hədəflərindən biri də dünyanın tanınmış universitet, elmi-tədqiqat institut və mərkəzləri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, birgə elmi-tədqiqatların, təcrübə mübadiləsinin aparılması, müxtəlif elm sahələri üzrə tanınmış alimlərin dəvət olunmasıdır.*



Türkiyənin Boğaziçi Universitetinin professoru Çağrı Karakurt BDU-da müasir topologiyanın problemləri üzrə məruzə edib. Seminarda BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun, Mexanika-riyaziyyat, Tətbiqi riyaziyyat və kibernetika fakültələrinin əməkdaşları, eləcə də doktorant və gənc tədqiqatçılar iştirak ediblər.

Məruzəçi bildirib ki, 1960-cı illərdə alınan bir sıra nəticələr aşağı ölçülü topologiyalara diqqət yetirməyə səbəb olub. Tanınmış riyaziyyatçı Stiven Smeyl 1961-ci ildə Puonkare problemini yüksək ölçülü fəzalarda həll etsə də, üç və dördölçülü hallar üçün problem həll olunmamış qaldı. Bu isə yeni üsulların tətbiqini tələb edirdi.

1982-ci ildə bu problem dördölçülü halda Maykl Fridon, 2002-ci ildə isə üç ölçülü halda Oriqoriy Perelman tərəfindən həll olundu. Məruzəçi qeyd olunan məsələlər haqqında iştirakçıları məlumatlandırıb, Briskorn məxsusiyyətli Milnor qatlarında Şteyn tutacaqlarının diaqramlarının təsvirini verib. Məxsusi halda verilən məsələni hamar hala gətirərək keçidlərdə xronik təmas strukturunun təbii simplektik əməliyyatının öyrənilməsini izah edib.Əməliyyatın iki müxtəlif interpretasiyasını verib.

# IV Azərbaycan Astronomiya Olimpiadasının ilk mərhələsi keçirilib

***Fevralın 10-da ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında IV Azərbaycan Astronomiya Olimpiadasının ilk mərhələsi keçirilib. Onlayn şəkildə keçirilən olimpiadada iştirak etmək üçün 1190 şagird qeydiyyatdan keçib.***

Olimpiadanın təşkilatçıları Azərbaycan Respublikasının Təhsil İnstitutu, Bakı Dövlət Universiteti, N. Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzidir. Təşkilat komitəsinin qərarına əsasən, mümkün 46 balın minimum 50%-ni, yəni ən azı 23 bal toplayan iştirakçılar olimpiadanın final mərhələsinə vəsiqə qazanıblar. Finalda iştirak haqqı qazanan şagirdlərə yaxın günlərdə daha ətraflı məlumat veriləcək.

Qeyd edək ki, IV Azərbaycan Astronomiya Olimpiadasının final mərhələsinin qalibləri Braziliyada keçiriləcək XVII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərslərinə cəlb olunacaqlar. Hazırlıq dərsləri Bakı Dövlət Universiteti və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin ekspertləri tərəfindən mərkəzdə təşkil olunacaq.

IV Azərbaycan Astronomiya Olimpiadası və XVII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərsləri Cənubi Qafqazda yeganə planetarium olan Tusi-Bohm Planetariumun baş sponsorluğu ilə həyata keçirilir.

# Cəlil Məmmədquluzadənin 155 illik yubileyi münasibətilə kitab sərgisi hazırlanıb

***Fevralın 22-də BDU Elmi Kitabxanasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin 155 illik yubileyi ilə əlaqədar kitab sərgisi təşkil olunub.***



Sərgidə Cəlil Məmmədquluzadənin Elmi Kitabxananın fondunda qorunan əsərləri və onun haqqında yazılmış 50-yə yaxın kitab nümayiş olunur. Onların sırasında Cəlil Məmmədquluzadənin müxtəlif illərdə nəşr olunmuş çoxcildlli "Seçilmiş əsərləri", "Danabaş kəndinin əhvalatları", "Ölülər", "Bəlkə də qaytardılar" əsərləri, həmçinin Afaq Əliyevanın "Cəlil Məmmədquluzadə irsinin nəşri məsələləri", Mirzə İbrahimovun "Böyük demokrat", Yəhya Əliyevin "Böyük yazıçı", Xalid Əlimirzəyevin "Dahi sənətkar, böyük vətəndaş" kitabları yer alır.

Sərgilənən kitablardan diqqəti daha çox cəlb edən dramaturqun ömür-gün yoldaşı Həmidə Məmmədquluzadənin müəllifi olduğu "Mirzə Cəlil haqqında xatirələrim" əsəri olub.

# BDU-da "Dil millətin simasıdır" adlı tədbir

***Fevralın 22-də Filologiya fakültəsinin, SABAH Mərkəzinin və Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "Dil millətin simasıdır" adlı tədbir keçirilib.***

Tədbirin moderatoru, Azərbaycan dilçiliyi kafedrasının və SABAH Mərkəzinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Nahidə Həsənova ana dilini qorumağın və təbliğ etməyin vacibliyindən, bu istiqamətdə gənclərin qarşısında dayanan əsas vəzifələrdən söz açıb.

BDU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Tofiq Hacıyev, kafedranın dosenti İsmayıl Məmmədov, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli tələbələri Azərbaycan dilinin tarixi inkişafı, mərhələləri barədə barədə məlumatlandırıblar. Bildiriblər ki, qloballaşmanın təsiri ilə dünya dilləri müxtəlif dəyişikliklərə məruz qalır.

Natiqlər ana dilinin saflığının qorumasında kütləvi informasiya vasitələrinin əhəmiyyətindən, televiziya, radio və mətbuatda ədəbi dil normalarının pozulmasından, sosial şəbəkə istifadəçilərinin ana dilinə qarşı biganəliyindən söz açıb, dilimizi müasir gəncliyə düzgün aşılamağın ciddi məsələ olduğunu diqqətə çatdırıblar.

# BDU Türkiyənin Muğla Sıtkı Koçman Universiteti ilə "Erasmus" mübadilə protokolu imzalayıb

***Fevralın 2-də BDU və Türkiyənin Muğla Sıtkı Koçman Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqaviləni BDU və Muğla Sıtkı Koçman Universitetinin Beynəlxalq əlaqələr şöbələrinin müdirləri Rauf Həsənov və Reşat Ünal imzalayıblar. Müqavilə çərçivəsində bakalavr, magistr, doktorant və tədqiqatçıların, həmçinin akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Qeyd edək ki, əsası 1992-ci ildə qoyulmuş Muğla Sıtkı Koçman Universitetində 44000 tələbə təhsil alır. 4 institut, 47 araşdırma mərkəzinin fəaliyyət göstərdiyi Universitetdə 21 fakültədə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

# BDU-nun TGT üzvləri Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlandırılıb

***Fevralın 5-də BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) İdarə Heyətinin üzvləri Gənclər və İdman Nazirliyinin "Gənclərin ideya marafonu" adlı tədbirində uğurla çıxış ediblər.***

Marafon çərçivəsində iştirakçılar komanda şəklində yeni ideyalar irəli sürüb, onların icra prosesi, qiymətləndirilməsi ilə bağlı fikirlərini əsaslandırıblar.

Marafonda ilk 3 yeri tutan komandaların üzvlərinə Gənclər və İdman Nazirliyi tərəfindən mükafatlar təqdim olunub. BDU-nun TGT üzvlərindən Rəsul Məmmədov "Kür" Olimpiya Tədris-İdman Mərkəzinə, Ofelya Qocayeva isə Şəki Olimpiya İdman Kompleksinə 2 günlük istirahət paketi qazanıb.

# BDU tələbələri gənclərin ekoloji savadlılığını artıran layihə həyata keçirəcəklər



***Fevralın 6-da Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri Nicat Həsənov və Fidan Qəniyevanın rəhbəri olduqları "Ekonəfəs" layihəsi Azərbaycan Respublikasının Gənclər Fondu və "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə şəbəkələşmə görüşünün qalibi olub.***

Görüşdə gənclər "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirmək istədikləri layihələri komanda şəklində ekspertlərə təqdim ediblər. BDU tələbələrinin rəhbəri olduqları "Ekonəfəs" komandası layihə təklifi vermiş 8 komanda arasında I yeri qazanıb və 3000 manat dəyərində mükafat əldə edib.

"Ekologiyaya nəfəs ol!" şüarı altında keçiriləcək layihənin əsas məqsədi gənclərdə ekoloji savadlılığın artırılmasıdır.

# BDU Elmi Kitabxanası “EBSCO platformasından istifadə imkanları” mövzusunda silsilə vebinarlar keçirib

***BDU-nun Elmi Kitabxanasının təşkilatçılığı ilə “EBSCO platformasından istifadə imkanları” mövzusunda növbəti silsilə vebinarlar keçirilib.***

Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) çərçivəsində keçirilən vebinarlar EBSCO nəşriyyatının təlim mütəxəssisi İrina Serjanın iştirakı ilə rus dilində və ödənişsiz təqdim olunub.

Vebinarlar “Academic Search Premier nümunəsi əsasında multidisiplinar məlumat bazalarında elmi informasiya axtarışı”, “EBSCO-nun elektron resursları beynəlxalq səviyyəli məqalələrin hazırlanmasında vasitə kimi”, “EBSCO - elektron kitabların yüklənməsi zamanı hansı xüsusiyyətlərə diqqət yetirməli”, “EBSCO elektron resurslarını görünən və istifadəli edən EBSCO Connect platforması”, “EBSCO-nun mobil tətbiqi haqqında bir neçə söz” mövzularına həsr olunub.

# Coğrafiya fakültəsində Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun bir qrup əməkdaşı ilə görüş

***BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin təşkilatçılığı ilə Coğrafiya fakültəsinin professor-müəllim heyəti və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq Münasibətlərin Məkan Təhlili Mərkəzinin direktoru İqor Okunev, elmi işçiləri Yevgeniya Zaxarova, Lidiya Jirnova, German Ostapenko və Müqayisəli politologiya kafedrasının baş elmi işçisi Marianna Şestakova arasında görüş keçirilib.***



Görüşdə çıxış edən Coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov fakültənin strukturu, elmi-tədris fəaliyyəti haqqında məlumat verib, BDU-nun Rusiya universitetləri ilə əvvəlki dövrlərdən mövcud olan elmi-pedaqoji əlaqələrinin inkişaf etdirilməsinin vacibliyinə toxunub. Qeyd edib ki, BDU xarici ölkə universitetləri ilə elmi-pedaqoji əlaqələrin qurulması, ikili diplom proqramlarının tətbiqi ilə kadr hazırlığına önəm verir. Bu baxımdan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu ilə siyasi coğrafiya sahəsində mütəxəssis hazırlığı istiqamətində əməkdaşlıq uğurlu nəticələr verə bilər.

Sonra nümayəndə heyətinin rəhbəri, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq Münasibətlərin Məkan Təhlili Mərkəzinin direktoru İqor Okunev rəhbərlik etdiyi qurumda Rusiya Xarici İşlər Nazirliyinin tapşırığı əsasında yerinə yetirilən elmi-tədqiqat işləri haqqında görüş iştirakçılarını məlumatlandırıb. Hazırda dünyada mövcud olan geosiyasi vəziyyətin daimi təhlil edilməsində və diplomat hazırlığı işində sosial-iqtisadi coğrafiya və siyasi coğrafiyanın əhəmiyyətli olduğunu bildirib.

BDU-nun İqtisadi və sosial coğrafiya kafedrasının müdiri Çingiz İsmayılov, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri Saleh Nağıyev, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri Aydın İbrahimov, kafedranın dosenti İradə Əhmədova, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Müqayisəli politologiya kafedrasının baş elmi işçisi Marianna Şestakova çıxışlarında Siyasi coğrafiya fənninin tədrisinin önəmini vurğulayıb, birgə əməkdaşlıq istiqamətində təkliflərini səsləndiriblər.

# BDU Elmi Kitabxanasının əməkdaşları FHN-in Akademiyasının Kitabxanasında

***Fevralın 14-də BDU-nun Elmi Kitabxanasının əməkdaşları Fövqəladə Hallar Nazirliyinin (FHN) Akademiyasının Kitabxanasında olublar. BDU-dan olan nümayəndə heyətini FHN-in Akademiyasının rəisi, general-mayor Baba Salayev qəbul edib. O, Akademiyanın və onun kitabxanasının yaranması, fəaliyyəti, elektron resursları, beynəlxalq əməkdaşlığı haqqında məlumat verib.***

Akademiyanın Ümumi Kitabxanasının rəisi Şəlalə Həziyeva ilə görüşdə gələcəkdə Akademiyanın Kitabxanasının BDU Elmi Kitabxanası ilə əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşdən sonra Heydər Əliyev mərkəzi, Akademiyanın muzeyi və kitabxanaya ekskursiya olunub.

BDU Elmi Kitabxanası 14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə FHN-in Akademiyasının Kitabxanasına 185 adda 400 nüsxə elmi, bədii və tədris ədəbiyyatı hədiyyə edib.

Hədiyyə olunan nəşrlər içərisində BDU-nun "Nəşr Evi"ndə çap olunan, müxtəlif elm sahələrinə dair BDU alimlərinin müəllifi olduqları fundamental dərslik, dərs vəsaiti və monoqrafiyalar da yer alıb.

Respublika ali təhsil müəssisələrinin kitabxanalarının metodiki mərkəzi statusunu daşıyan BDU-nun Elmi Kitabxanası artıq ənənəyə çevrilmiş kitabbağışlama aksiyasını davam etdirir.

# BDU-nun daha iki fakültəsinin əməkdaşları üçün tələbəyönlü tədrisin təşkilinə dair təlim

***Fevralın 14-də Sosial elmlər və psixologiya, İnformasiya və sənəd menecmenti fakültələrinin əməkdaşları üçün təlim təşkil olunub.***

Təlimçi kimi rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov çıxış edib. Təlimdə tələbəyönlü və kompetensiya əsaslı tədrisin təşkilinə dair iştirakçılara geniş məlumat verilib. Təlimdə fakültənin akademik, inzibati və tədris köməkçi heyəti iştirak edib. Sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, təlim silsilə olaraq digər fakültələrdə də keçiriləcək.



# BDU-nun Qazax filialında qış imtahan sessiyası başa çatıb

***Bakı Dövlət Universitetinin Qazax filialında 2023-2024-cü tədris ilinin qış imtahan sesssiyası uğurla başa çatıb.***

İmtahan sessiyası müddətində tələbələrin müraciətlərinin qəbulu, araşdırılması və biliklərinin qiymətləndirilməsində obyektivliyin təmin olunması məqsədilə Operativ Qərargah, Apelyasiya Komissiyası və “Qaynar xətt” fəaliyyət göstərib. Sessiya ərzində daxil olan müraciətlər operativ araşdırılıb.

Filialın direktoru Arif Rüstəmov imtahanların gedişinə nəzarət etmək üçün mütəmadi olaraq imtahan keçirilən auditoriyalarda olub, tələbələri maraqlandıran sualları cavablandırıb.

Filialda imtahanlar 16 ixtisas üzrə iki növbədə keçirilib. Sessiyada bakalavriat səviyyəsi üzrə 1497, magistratura səviyyəsi üzrə 29 nəfər imtahan verib. İmtahanlarda tələbələrin 98,07 faizi iştirak edib. Müvəffəqiyyət göstəricisi bakalavriat səviyyəsi üzrə 80, magistratura səviyyəsi üzrə 100 faiz olub.

# Coğrafiya və Mexanika-riyaziyyat fakültələrinin əməkdaşları üçün tələbəyönlü tədrisin təşkilinə dair təlim

***Fevralın 9-da Coğrafiya və Mexanika-riyaziyyat fakültələrinin əməkdaşları üçün təlim təşkil olunub. Təlimçi kimi rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov çıxış edib.***

Təlimdə tələbəyönlü və kompetensiya əsaslı tədrisin təşkilinə dair iştirakçılara geniş məlumat verilib. Təlimdə fakültənin akademik, inzibati və tədris köməkçi heyəti iştirak edib. Sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, təlim silsilə olaraq digər fakültələrdə də keçiriləcək.

# “Təkrar doldurula bilən natrium-ion batareyalarının perspektivləri” mövzusunda elmi seminar

***Fevralın 9-da BDU-nun Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında “Təkrar doldurula bilən natrium-ion batareyalarının perspektivləri” mövzusunda elmi seminar keçirilib.***

Laboratoriyanın elmi işçisi Almara Rəhimli təkrar doldurula bilən natrium-ion batareyaları, onun litium-ion batareyalarından üstünlükləri, onların parametrləri, oxşar və fərqli cəhətləri, bu sahədə ən son yeniliklər barədə məlumat verib. Məruzəçi qeyd edib ki, natrium-ion batareyalarının strukturu müxtəlif elektron cihazlarda geniş istifadə olunan litium-ion batareyalarına bənzəyir, lakin enerji saxlamaq üçün litium ionları əvəzinə natrium ionlarından istifadə olunur. Natrium-ion batareyalarının litium-ion batareyalarından üstünlüyü natriumun qeyri-məhdud tədarükü səbəbindən istehsal xərclərinin aşağı olmasıdır. Onlar həm də natrium-kükürdlü batareyalardan fərqli olaraq, litium-ion batareyalarına oxşar ölçülərdə hazırlana bilirlər. Natrium-ion batareyalarında anod qismində istifadə edilən materiallar natrium ilə qarşılıqlı təsir zamanı orijinal ölçülərinin 400-500 faizinə qədər şişir, mexaniki zədələnməyə və elektrik kontaktının itməsinə səbəb olur. Son zamanlar natrium-ion batareyalarının mənfi elektrodu üçün yeni növ qrafit layların tətbiqinə dair tədqiqatlar aparılır və bu tip batareyaların litium-ion batareyalarını əvəz etməsinə ümid artır.

# BDU-dan növbəti kitabbağışlama aksiyası



***Fevralın 15-də BDU-nun Elmi Kitabxanasının əməkdaşları Sumqayıt Dövlət Universitetinin (SDU) Elmi Kitabxanasında olublar. BDU-dan olan nümayəndə heyəti 14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə Sumqayıt Dövlət Universitetinin Elmi Kitabxanasına kitablar hədiyyə edib.*** SDU-nun Elmi Kitabxanasının sorğusuna əsasən, universitetin profilinə uyğun, tələbə, professor və müəllim heyəti tərəfindən daha çox ehtiyac duyulan ümumilikdə 147 adda, 362 nüsxə elmi, bədii və tədris ədəbiyyatı Mübadilə-ehtiyat fondundan seçilərək təhvil verilib. Hədiyyə olunmuş kitablar arasında Azərbaycan dili və nitq mədəniyyəti, Azərbaycan ədəbiyyatı, tarixi, pedaqogika, ekologiya, coğrafiya, təhsilə dair dərsliklər, həmçinin iqtisadiyyat, menecment, bank işi, makro və mikroiqtisadiyyata aid ingilis dilindən Azərbaycan dilinə tərcümə olunmuş beynəlxalq miqyaslı akademik nəşrlər yer alıb.

SDU-nun sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Elmar Xəlilov və rektorun müşaviri İsmayıl İsmayılov müxtəlif elm sahələrinə dair BDU alimlərinin müəllifi olduqları və BDU-nun "Nəşr Evi"ndə çap olunan fundamental dərslik və dərs vəsaitlərinin universitetin tədris prosesinə əsaslı informasiya dəstəyi göstərəcəyini bildiriblər.

Tədbirdə çıxış edən BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova vurğulayıb ki, təmsil etdiyi kitabxana respublika ali təhsil müəssisələrinin kitabxanalarının metodiki mərkəzi kimi universitet kitabxanalarının fondunun formalaşmasına yardım məqsədilə hər il 14 fevral tarixində kitab bağışlama aksiyaları keçirir. Aksiya çərçivəsində hədiyyə olunan kitablar oxucular üçün yeni biliklərin əldə olunmasına dəstək olacaq.

# Ekologiya və torpaqşünaslıq fakültəsinin müəllim-tələbə heyəti Şahdağ Milli Parkında



***Fevralın 20-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Bioloji Müxtəlifliyin Qorunması Xidməti və BDU-nun birgə təşkilatçılığı ilə Ekologiya və torpaqşünaslıq fakültəsinin müəllim-tələbə heyəti Şahdağ Milli Parkının İsmayıllı rayonu ərazisində yerləşən hissəsində ekotur səfərində olub.***

Şahdağ Milli Parkı Qusar, Quba, Şamaxı, İsmayıllı, Qəbələ və Oğuz rayonlarının hüdudları daxilində 140 min ha sahəni əhatə edir. Səfərin əsas məqsədi Milli Parkın zəngin biomüxtəlifliyinin, əsrarəngiz relyef-landşaft strukturunun, müxtəlif torpaq örtüyünün, hündürlük qurşaqları üzrə iqlim elementlərinin paylanma qanunauyğunluqları, ekosistemin kompleks müşahidəsi və ekoturizm imkanları ilə tanışlıqdır.

Şahdağ Milli Parkının rayonun Buynuz və Qalacıq kəndləri ərazisində orta və yüksək dağlıq qurşağı əhatə edən biolandşaftın flora və fauna zənginliyi müəllim-tələbə heyətinin marağına səbəb olub. Tələbələr biomüxtəlifliyin qorunması ilə bağlı müzakirələrdə fəallıq göstərib, Qərbi Avropadan gətirilən zubrların (meşə kəllərinin) populyasiyası, yerli şəraitə uğunlaşması, nəsili kəsilməkdə olan nəcib maralların mühafizəsi və saylarının artırılması istiqamətində görülən işlərlə əyani tanış olublar.

Daha sonra müəllim-tələbə heyəti Qalacıq kəndi yaxınlığındakı eyniadlı şəlaləyə baş çəkib. Qalacıq şəlaləsi meşə landşaftının mürəkkəb relyef quruluşu ilə ahəng əmələ gətirdiyindən, dağ-iqlim şəraitinin təmizliyini təmin edir.

# BDU-da "Sazlı-sözlü kəlağayı günləri"



***Fevralın 23-də BDU-da "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi, Kəlağayı Muzeyi, İnformasiya və sənəd menecmenti fakültəsinin birgə təşkilatçılığı ilə "Sazlı-sözlü kəlağayı günləri" adlı ədəbi-bədii tədbir keçirilib.***

"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri Güllü Eldar Tomarlı tədbirin Elm və Təhsil Nazirliyinin dəstəyi ilə keçirildiyini bildirib. Qeyd edib ki, silsilə tədbirlər digər təhsil ocaqlarında da davam edəcək. Tədbirin keçirilməsində məqsəd milli-mənəvi dəyərlərimizin gənc nəsil arasında təbliği, adət-ənənələrimizin yaşadılmasıdır. Dövlətimiz tərəfindən bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də uğurlu siyasət aparıldığını qeyd edən natiq bildirib ki, milli dəyərlərimizin bir atributu kimi Azərbaycan kəlağayısı ölkədə və xaricdə geniş təbliğ olunur: "Bizim üçün çox əlamətdardır ki, kəlağayı 2014-cü ildə UNESCO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ Siyahısına daxil edilib".

Güllü Tomarlı Azərbaycan kəlağayısının tarixi, formaları, naxışları, bəzəkləri barədə iştirakçılara geniş məlumat verib. Natiq bildirib ki, onun təşəbbüsü və rəhbərliyi ilə 2022-ci ildə ölkəmizdə Kəlağayı Muzeyi yaradılıb: "Muzeydə müxtəlif dövlərə aid kəlağayılar toplanıb. Eyni zamanda muzeyin təşkilatçılığı ilə bölgələrimizdə ədəbi-bədii gecələr, konsert proqramları və maarifləndirici tədbirlər keçirilir, kitablar nəşr olunur".

Sonra BDU-nun kafedra müdiri Knyaz Aslan, klassik aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Dədə Ələsgərin nəticəsi Xətai Ələsgərli, şair Səadət Buta, BDU-nun baş müəllimi Leyla Abasova və başqaları mövzu ilə bağlı çıxış ediblər. Çıxışlarda tələbələr arasında milli dəyərlərimizin təbliğinin əhəmiyyəti xüsusi vurğulanıb.

Tədbir ədəbi-bədii hissə ilə davam edib, mövzuya uyğun musiqi nömrələri və şeirlər səsləndirilib.

# BDU Laçındakı "Simurq" kitabxanasına kitablar hədiyyə edib

***Fevralın 14-də BDU-nun Elmi Kitabxanasının, İnformasiya və sənəd menecmenti fakültəsinin dəstəyi, "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə Laçın şəhərindəki "LaCinema" kinoteatrının nəzdində fəaliyyət göstərən "Simurq" kitabxanasına 14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə 412 nüsxə ədəbiyyat hədiyyə edilib.***

Hədiyyə olunan ədəbiyyatların içərisində Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin müsahibələri, Universitetin professor-müəllim heyətinin fəaliyyətini əks etdirən nəşrlər, həmçinin müəllifi olduqları dərslik və dərs vəsaitləri, bədii əsərlər yer alıb.

Qeyd edək ki, fevral ayının 4-də açılan kitabxana Laçına yeni köçmüş sakinlərin təşəbbüsü ilə görkəmli maarifçi, yazıçı Tağı Şahbazi Simurğun şərəfinə "Simurq" adlandırılıb.

# BDU-da "Elsevier" və "Informascope" şirkətlərinin nümayəndələri ilə görüş

***Fevralın 19-da BDU əməkdaşları ilə "Elsevier" və "Informascope" şirkətlərinin nümayəndələri arasında görüş keçirilib.***

Görüşdə "Elsevier" şirkətinin Türkiyə və Mərkəzi Asiya ölkələri üzrə tədqiqat meneceri Ayhan Akanay Saracoğlu, "Informascope" şirkətinin icraçı direktoru Kıvanç Çınar iştirak ediblər.

Xarici nümayəndələr BDU əməkdaşlarına təmsil etdikləri şirkətlər və onların fəaliyyət istiqamətlərinə dair detallı məlumat verib, "Scopus" və "SciVal" məlumat bazaları vasitəsi ilə BDU-nun tədqiqat performansına dair təqdimat ediblər. Daha sonra isə BDU ilə "Elsevier" və "Informascope" şirkətlərinin nümayəndələri arasında mümkün əməkdaşlıq istiqamətlərinə dair fikir mübadiləsi aparılıb.

# Audiovizual Şuranın əməkdaşları BDU tələbələrinə mühazirə oxuyublar

***Fevralın 29-da Audiovizual Şuranın əməkdaşları Jurnalistika fakültəsinin tələbələri ilə görüşüblər. Görüş Azərbaycan Respublikası Audiovizual Şurası, Medianın İnkişafı Agentliyi və BDU arasında imzalanan anlaşma memorandumuna uyğun olaraq keçirilib.***

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev audiovizual media və onun tənzimlənməsi məsələlərinin tələbələr arasında böyük marağa səbəb olduğunu, bu sahədə daha çox məlumat əldə etməyin zəruriliyini vurğulayıb.

Şuranın Aparat rəhbəri Fazil Novruzov qurumun öz fəaliyyətində BDU tələbələri ilə sıx kommunikasiyaya önəm verdiyini, gələcək jurnalistlərin audiovizual media tənzimlənməsi üzrə məlumatlılığının artırılmasına çalışdığını qeyd edib.

Audiovizual Şuranın Hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Ayxan Sadıqlı audiovizual, onlayn media subyektləri, media sahəsində dövlətin vəzifələri, Şuranın əsas vəzifə və funksiyaları barədə geniş təqdimatla çıxış edib.

Şuranın hüquqşünası Kamran Əliyev isə mediada yayılan informasiyaya dair tələblər, tətbiq oluna bilən sanksiyalarla bağlı tələbə-jurnalistləri məlumatlandırıb.

Təqdimatdan sonra audiovizual medianın tənzimlənməsi üzrə tələbələri maraqlandıran suallara aydınlıq gətirilib.

# Boğaziçi Universitetinin professoru BDU-da müasir topologiyanın problemlərinə dair məruzə edib

*BDU-nun hədəflərindən biri də dünyanın tanınmış universitet, elmi-tədqiqat institut və mərkəzləri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, birgə elmi-tədqiqatların, təcrübə mübadiləsinin aparılması, müxtəlif elm sahələri üzrə tanınmış alimlərin dəvət olunmasıdır.*



Türkiyənin Boğaziçi Universitetinin professoru Çağrı Karakurt BDU-da müasir topologiyanın problemləri üzrə məruzə edib. Seminarda BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun, Mexanika-riyaziyyat, Tətbiqi riyaziyyat və kibernetika fakültələrinin əməkdaşları, eləcə də doktorant və gənc tədqiqatçılar iştirak ediblər.

Məruzəçi bildirib ki, 1960-cı illərdə alınan bir sıra nəticələr aşağı ölçülü topologiyalara diqqət yetirməyə səbəb olub. Tanınmış riyaziyyatçı Stiven Smeyl 1961-ci ildə Puonkare problemini yüksək ölçülü fəzalarda həll etsə də, üç və dördölçülü hallar üçün problem həll olunmamış qaldı. Bu isə yeni üsulların tətbiqini tələb edirdi. 1982-ci ildə bu problem dördölçülü halda Maykl Fridon, 2002-ci ildə isə üç ölçülü halda Oriqoriy Perelman tərəfindən həll olundu.

Məruzəçi qeyd olunan məsələlər haqqında iştirakçıları məlumatlandırıb, Briskorn məxsusiyyətli Milnor qatlarında Şteyn tutacaqlarının diaqramlarının təsvirini verib. Məxsusi halda verilən məsələni hamar hala gətirərək keçidlərdə xronik təmas strukturunun təbii simplektik əməliyyatının öyrənilməsini izah edib. Əməliyyatın iki müxtəlif interpretasiyasını verib.

# “BDU könüllüləri” təşkilatının sədri təltif edilib



*Yasamal Rayon İcra Hakimiyyətində 2 fevral – Azərbaycan Gəncləri Günü ilə əlaqədar tədbir keçirilib.*

Tədbirdə Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatının sədri Nərmin Heydərova 2023-cü ildə Yasamal rayonunun ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə xüsusi diplomla təltif edilib.

Təşkilatın sədri Nərmin Heydərovanı təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayırıq!

Qeyd edək ki, “BDU könüllüləri” təşkilatı 2019-cu ildən fəaliyyət göstərir. BDU könüllüləri Universitetin və ölkəmizin ictimai həyatında aktiv iştirak edirlər. Təşkilat hazırda öz ətrafında 1000-ə yaxın tələbəni birləşdirir.

# BDU-nun tələbələri “Milla” süd emalı zavodunda

*Fevralın 5-də Biologiya fakültəsinin Biotexnologiya ixtisası üzrə IV kurs tələbələri professor Fərait Əhmədovanın rəhbərliyi ilə “Milla” süd emalı zavoduna ekskursiya ediblər.*

Zavodun İstehsalat əməliyyatları departmentinin direktoru Vilay Hirave, Təlim və inkişaf şöbəsinin müdiri Yelena Yusifzadə tələbələrə istehsal prosesində istifadə edilən texnologiyaların xarakteristikası ilə bağlı məlumat veriblər.

Daha sonra tələbələr istehsalat üzrə menecer Vadər Həsənovun iştirakı ilə süd, qatıq, ayran, dondurma, pendir istehsalı və qablaşdırma prosesini əyani izləyib, biotexnoloji analizlərin aparıldığı laboratoriya ilə tanış olublar.



# BDU TGT "İlin Tələbə Gənclər Təşkilatı" seçilib

*Fevralın 2-də Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) tərəfindən 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə Tələbə Gənclər Təşkilatlarının Respublika Forumu keçirilib.*

Forumda Bakı Dövlət Universitetinin (BDU) Tələbə Gənclər Təşkilatı (TGT) 2023-cü ildə "Heydər Əliyev İli" çərçivəsində ölkədə ictimai və sosial əhəmiyyətli, o cümlədən könüllü fəaliyyətin təşkili və həyata keçirilməsində fəal iştirakına görə "İlin Tələbə Gənclər Təşkilatı" adına layiq görülüb.

Bu münasibətlə BDU TGT kollektivini təbrik edir, gələcək fəaliyyətlərində yeni-yeni uğurlar arzu edirik!

# Biologiya fakültəsinin tələbələrinin istehsalat və pedaqoji təcrübələri başlayıb

Fevralın 16-da Biologiya fakültəsinin Biologiya, Su bioehtiyatları və akvakultura, Biotexnologiya ixtisaslarında təhsil alan IV kurs tələbələrinin Elm və Təhsil Nazirliyinin müvafiq elmi-tədqiqat institutlarında, “Fetal Mərkəz NS Genetics” klinikası, “Azər-Maya İstehsal” QSC, “AZZA” QSC, “Milla Dairy” MMC, “Avromak” MMC, “Xıllı Balıq” MMC, “Azerbaijan Fish Farm” MMC, Aqrar Xidmətlər Agentliyinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin Mərkəzi laboratoriyası, “Biyan Products” MMC, “Azərfarm” LTD, Koreya Şərq Təbabəti Klinikası (SEBA), Veysəloğlu Şirkətlər Qrupu, “Ulduz” Şokolad Fabriki kimi istehsalat müəssisələrində 9-14 həftə müddətində istehsalat, Biologiya müəllimliyi ixtisasında təhsil alan tələbələrinin isə Bakı şəhərində yerləşən müvafiq tam orta ümumtəhsil məktəblərində tədris planına uyğun olaraq 9 həftəlik pedaqoji təcrübələrinə başlanılıb.

BDU-nun Biologiya fakültəsinin dekanı Afət Məmmədova, kafedra müdirləri və təcrübə rəhbərləri istehsalat və pedaqoji təcrübələrin başlaması ilə əlaqədar tələbələrlə keçirilən görüşdə təcrübələrin təşkili barədə ətraflı məlumat verib, onları maraqlandıran sualları cavablandırıblar.

# BDU tələbələri YARAT Müasir İncəsənət Mərkəzində

*Fevralın 23-də Biologiya və Coğrafiya fakültələrinin Tələbə Gənclər təşkilatlarının təşkilatçılığı ilə tələbələr YARAT Müasir İncəsənət Mərkəzinə ekskursiya ediblər.*

Ekskursiya zamanı tələbələr mərkəzin hər iki bölməsindəki sərgilərlə, maraqlı rəsm əsərləri ilə tanış olublar. Öncə tələbələr 6 azərbaycanlı rəssamın əsərlərindən ibarət “Yoxlanılıb, mina yoxdur!” adlı qrup sərgisinə baxıblar. Sərgi müharibə dəhşətlərini dəf edən və daha da güclənən cəmiyyətdən bəhs edir.

Daha sonra tələbələr 7 gürcü rəssamın yaradıcılığından ibarət “Ekinoks” adlı qrup sərgisinə baxış keçiriblər. Sərgi işıq və qaranlığın qarşılıqlı əlaqəsini təsvir etməklə, dualist prinsip üzərində qurulub.

# BDU tələbələri Aşqarlar Kimyası İnstitutunda istehsalat təcrübəsində

*Fevralın 22-də Kimya fakültəsinin IV kurs tələbələri Elm və Təhsil Nazirliyinin akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun (AKİ) müvafiq laboratoriyalarında istehsalat təcrübəsinə başlayıblar.*

Tələbələrlə görüşən baş direktor, akademik Vaqif Fərzəliyev rəhbəri olduğu elmi müəssisədə aparılan tədqiqatlardan söz açıb, institutun fundamental və innovativ elmi nailiyyətlərə imza atdığını söyləyib. Qeyd edib ki, institutun laboratoriyalarında tələbələrin müvafiq biliklərə yiyələnməsi üçün hər cür imkan yaradılıb. Tələbələr cihaz və avadanlıqların iş prinsipi, aparılan tədqiqatların mahiyyət və məzmunu ilə yaxından tanış olacaqlar, tədqiqat proseslərinə qoşula biləcəklər.

Görüşdə çıxış edən BDU-nun Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri, professor İbrahim Məmmədov universitetin Kimya fakültəsinin Aşqarlar Kimyası İnstitutu ilə əməkdaşlıq səviyyəsinin çox yüksək olduğunu vurğulayıb.

İnstitutun icraçı direktoru, professor Əfsun Sucayev təcrübə dövründə tələbələrin onlar üçün hazırlanmış proqrama əsasən, institutun elmi işçiləri tərəfindən elmi tədqiqat işlərinə cəlb olunacağını və nəzəri biliklərini real iş şəraitində tətbiq etmək imkanı əldə edəcəklərini bildirib.

# BDU tələbələri Təbiət Tarixi Muzeyində

*Fevralın 26-da Biologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə tələbələr Həsən bəy Zərdabi adına Təbiət Tarixi Muzeyinə ekskursiya ediblər.*

Muzeyin ekspozisiyasında Azərbaycanın zəngin təbii sərvətləri öz əksini tapıb. Ekskursiya zamanı tələbələr arxeoloji qazıntılar zamanı aşkarlanan müasir və geoloji keçmişdə yaşamış onurğasız, onurğalı heyvanların skeletləri, müqəvvaları, izləri, xüsusi məhlullarda saxlanılan cəsədləri ilə tanış olublar. Tələbələrə muzeyin zoologiya, paleontologiya və geologiya bölmələrində saxlanılan nadir eksponatlar haqqında məlumat verilib.

# 21 fevral – Beynəlxalq Ana Dili Günüdür



*“Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi kökləri vardır. Şəxsən mən ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”*

*Ümummilli Lider Heydər Əliyev*

***Fevralın 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur.***

1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib. Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə apararaq öldürülən 4 tələbənin xatirəsinə ehtiram olaraq elan olunub. Beynəlxalq Ana Dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır.

Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması dilimizin gözəl bilicisi, Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1969-cu ildə qoyulub: Heydər Əliyev həmin il indiki Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış edib. Az keçməmiş bu dil dövlət əhəmiyyətli tədbirlərə də yol açıb. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə olub.

Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən, avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi təsis edilib. 2002-ci il sentyabrın 30-da “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanunun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub. Bu sənəd Ümummilli Lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir.

Hazırda bu ənənələri Prezident İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlətimizin başçısının “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”, “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında”, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında”, “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” sərəncamları, “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Prezident İlham Əliyevin də dediyi kimi, “Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir”.

# BDU-da “Beynəlxalq Ana Dili Günü” adlı kitab sərgisi

***Fevralın 20-də BDU-nun Elmi Kitabxanasında 21 fevral - Beynəlxalq Ana Dili Gününə həsr olunmuş sərgi təşkil olunub.***



Sərgidə görkəmli şəxslərin ana dilimiz haqqında fikirləri, dilçi alimlərimizin Azərbaycan dilinin əsrlərdən günümüzə qədər gəlib çatan tarixi zənginliyi və dərinliyini, müasir forma və üslublarını, xüsusiyyətlərini özündə əks etdirən 100-ə yaxın nəşr, kitab, dərslik və dərs vəsaiti nümayiş etdirilir.

Sərgidə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin inkişafındakı xidmətləri, 70-ci illərin əvvəllərindən başlayaraq yürütdüyü milli dil siyasəti, dilimizin dövlət dili statusu alması və beynəlxalq səviyyəyə yüksəlməsi uğrunda mübarizəsindən bəhs edən “Heydər Əliyev və Azərbaycan dili”, “Heydər Əliyevin dil siyasəti” adlı kitablar oxucular tərəfindən xüsusi maraqla qarşılanır.

Sərgilənən nəşrlər içərisində dünyanın müxtəlif dilləri - türk, rus, ingilis, alman, fransız, yapon, çin, ərəb, urdu, qədim roma dilləri, həmçinin Qafqazda yaşayan tatların dilinə aid bir çox nümunələr də var.

Beynəlxalq Ana Dili Gününə həsr olunmuş sərgi həftənin sonuna qədər ziyarətçilərin üzünə açıq olacaq.

# BDU dünya universitetlərinin daha bir reytinqində irəliləyib

***URAP (University Ranking by Academic Performance) reytinq təşkilatı 2024-cü il üzrə reytinq nəticələrini dərc edib.***

Müvafiq nəticələrə əsasən, cari ildə də Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrindən yalnız Bakı Dövlət Universiteti (BDU) müvafiq reytinqdə yer alıb və ötən ilin nəticəsindən 285 pillə irəliləyib.

URAP qlobal və reytinq nəticələrini 2010-cu ildən bəri dərc edir. URAP “Web of Science” və “InCites” kimi beynəlxalq bibliometrik verilənlər bazalarından məlumatları toplayır və ən çox məqalə dərc olunmuş ali təhsil müəssisələrinin məlumatlarından istifadə edir. Bununla yanaşı, ali təhsil müəssisələrinin fəaliyyəti bir neçə indikator əsasında qiymətləndirilir.

Məlumat üçün bildirək ki, ötən il də BDU Azərbaycanı müvafiq reytinqdə təmsil edən yeganə ali təhsil müəssisəsi olub.

# BDU-nun təsis etdiyi elmi jurnal BMT-nin AGRIS beynəlxalq bazasına daxil edilib

***BDU-nun təsis etdiyi “Acta Botanica Caucasica” jurnalı Birləşmiş Millətlər Təşkilatının (BMT) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Aqrar Elm və Texnologiya üzrə Beynəlxalq Sistemində (AGRIS) indeksləşdirilib və xüsusi identifikasiya kodu alıb.***




Jurnal BDU-nun Botanika və bitki fiziologiyası kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Elşad Qurbanovun baş redaktorluğu ilə nəşr olunur.

AGRIS kənd təsərrüfatı elmi və texnologiyası üzrə 12 milyondan çox strukturlaşdırılmış biblioqrafik qeydləri olan qlobal ictimai məlumat bazası olub, biologiya və aqrar elmlər sahəsində dünyanın əsas informasiya bazalarından biri sayılır. 1974-cü ildən fəaliyyət göstərən AGRIS-ə 65 ölkədən 150-dən çox iştirakçı qurum, akademik institut, nəşriyyat, dövlət orqanı, milli və beynəlxalq təşkilat tərəfindən informasiyalar daxil edilir. AGRIS-in imkanlarından dünya üzrə 400 mindən çox tədqiqatçı və mütəxəssis istifadə edir. AGRIS axtarış sistemi alimlərə, tədqiqatçı və tələbələrə AGROVOC bazasından, xüsusi jurnal başlıqlarından və ya ölkələrin, qurumların və müəlliflərin adlarından, açar sözlərdən istifadə edərək mürəkkəb axtarışlar aparmağa imkan verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası biologiya və aqrar elmlər sahəsi üzrə AGRIS bazasını beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalar) aid edir və bu bazada indeksləşən jurnallarda çıxan məqalələr beynəlxalq məqalə kimi qəbul olunur.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 29.02.2024

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08